*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 55-60* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.1.55*

# Fikrət Qocanın poetikası

**Bahar Məmmədova Bərdəli**
Filologiya elmləri doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: baharmemmedova288@gmail.com
Orcid: 0009-0008-3893-5756

**Annotasiya.** Məqalədə Fikrət Qocanın poeziyasından bəhs edilir. Şairin novator şeirləri çox qısa və lakonikdir, lakin məzmunlu, fikir yükü ağır olan poetik nümunələrdir. Onun təbiətlə, məhəbbətlə bağlı kifayət qədər şeirləri vardır. Vətən təbiətinin poetik vəsfi əsərlərinin qayəsini təşkil edir. Fikrət Qoca ən çox məhəbbətdən bəhs edən şeirlərin müəllifi olduğundan, lirik şair kimi tanınır və şeirlərinə onlarca musiqi bəstələnmişdir.

Məqalədə şairin poemalarının təhlilinə daha geniş yer verilib. Bu poemaların əsas qəhrəmanı həyatda tanıdığımız məşhur şairlər, dövlət xadimləri, siyasətçilər, şəhidlər və adi insanlardır. Onun Azərbaycanın Dövlət Xadimi Heydər Əliyevin siyasətinə, həyatına həsr etdiyi poema öz səmimiliyi, reallığı ilə fərqlənir, seçilir. Həmçinin, Xalq şairi Rəsul Rzaya, türk şairi Nazim Hikmətə, filippinli siyasətçi, gənc şair Xose Risala, şəhid jurnalist, Azərbaycanın Milli qəhrəmanı Çingiz Mustafayevə həsr etdiyi poemalar yaradıcılığında xüsusi yer tutur.

Fikrət Qoca post-müharibə dövrü ədəbiyyatının yaradılmasında, formalaşmasında mühüm rol oynayıb. Onun Birinci və İkinci Qarabağ müharibələrinə həsr etdiyi əsərləri bunu deməyə əsas verir.

**Açar sözlər:** Azərbaycan, ədəbiyyat, Rəsul Rza, Fikrət Qoca, poema, Nazim Hikmət

**Məqalə tarixçəsi:** göndərilib – 08.04.2025; qəbul edilib – 22.04.2025

# Poetics of Fikret Goja's poetry

**Bahar Memmedova Berdeli**
Doctor of Philological Sciences, Associate Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: baharmemmedova288@gmail.com

**Abstract.** This article explores the poetry of Fikret Goja. The poet's innovative verses are extremely concise and laconic, yet rich in content and laden with profound ideas. A significant number of his poems are devoted to nature and love. Poetic portrayals of the native landscape occupy a central place in his oeuvre. Since he most often writes about love, Fikret Goja is recognized as a lyrical poet, and many of his poems have been set to music.

The article also provides a detailed analysis of the poet's longer poems. The protagonists of these works include renowned poets, statesmen, politicians, martyrs, and ordinary people. The poem dedicated to Azerbaijan's statesman Heydar Aliyev—its sincerity and realism make it stand out. Equally significant in Goja's body of work are the poems dedicated to People's Poet Rasul Rza, Turkish poet Nazım Hikmet, Filipino statesman and young poet José Rizal, and the journalist-martyr and National Hero of Azerbaijan Chingiz Mustafayev.

Fikret Goja has played a pivotal role in the formation and development of postwar literature. His works dedicated to the First and Second Karabakh Wars testify to this.
**Keywords:** Azerbaijan, literature, Rasul Rza, Fikret Goja, poem, Nazım Hikmet

**Article history:** received – 08.04.2025; accepted − 22.04.2025

## Giriş / *Introduction*

Xalq şairi Fikrət Qoca XX əsrin 60-cı illər Azərbaycan ədəbi nəslinə mənsubdur və çox zəngin bədii yaradıcılığa malikdir. Onun poeziyası həmişə diqqət mərkəzində olmuşdur. Şairin əsərlərində müxtəlif insan obrazları qalereyaqsı yaradılıb və yetərincə tərənnüm edilib. Güclü müşahidə qabiliyyətinə malik, həm də yaxşı psixoloq olan Fikrət Qoca şəxsiyyəti ilə yaradıcılığı bir-birini tamamlayan şairlərdən biri kimi yaddaşlara köçüb. Onun novator şeirləri qısa, lakonik, lakin məzmunlu, fikir yükü ağır olan misralardan ibarətdir.

İlk şeirləri Vətən və onun təbiətinə həsr olunub. “Ağlama, bənövşə”, “Ləçəyi tökülən güllər”, “Payız duyğuları”, Yaz ətri”, “İlk bahar”, “Bu torpağın üstündə”, “Dəli kür”, “Haça dağ”, “Astaraçay”, “Lənkaran”, “Masallı”, “Ağdaşım”, “Göygöl”, “Vətən torpağı” kimi onlarla şeir Vətənin gözəlliyindən, gülündən, çiçəyindən, şəhərindən, dağından, çayından, onun fəsillərindən bəhs edir.Onların hər biri bir peyzajdır, rəsm əsəridir. Göz oxşayan sözlə cızılmış Vətən sevgisidir.

Şairin bir çox şeirlərində dünya ölkələri də tərənnüm olunur. “Afrikanın gecələri”, “Salam, Vyetnam”, “Baltikin sahilində”, “Vyetnamın gözəlləri”, “Kiyev görüşləri” “Baykanur”, “Qazağıstan çölləri” kimi şeirlər də bunu deməyə əsas verir. Demək, şairin yaradıcılığında milli və bəşəri ideyalar hakimdir. Xalq şairi və filologiya elmləri doktoru, professor Elçin yazır: “Milli ilə bəşərinin vəhdəti, bir-birini tamamlaması Fikrətin poeziyası üçün səciyyəvi bir cəhətdir və bu sözləri yazarkən onun 50-55 il bundan əvvəl qələmə aldığı “Vals” şeiri yadıma düşür...” [1, s.98]

Fikrət Qoca ən çox lirik şairdir. İlahi eşqin, məhəbbətin vəsvini əks etdirən poetik duyğular onun poeziyasında mühüm yer tutur. “Səni sevdiyim üçün”, “Gözəllər”, “Elə tələsirəm səni görməyə”, “Gedir”, “O keçən günlər” və s. şeirlər şairin könül duyğularından bəslənmiş bənzərsiz əsərlərdir. “Fikrət o şairlərdəndir ki, onun şeirlərinin poetikası ilə mövzusu arasında zəncirvari bir bağlılıq var və bu şeirlərin formasını da onların məzmunu müəyyənləşdirir, buna görə də o, sərbəstdə də təbiidir, hecada da, destruktiv şeir formasında da” [1, s.102].

## Əsas hissə / *Main Part*

Fikrət Qocanın yaradıcılığında müxtəlif mövzulu poemaları mühüm yer tutur. Bu poemaların əksəriyyətində şair bir çox insanların bədii obrazını yaradıb. Bu insanlar ya tanınmışlar, məşhurlardır, ya da adi insanlardır. Bəzən tanınmışın, məşhurun portretini böyük istedadlı şair sözlə çəkir, bəzən də ümumiləşdirilmiş bir insan tipi yaradır. Hər iki halda şair bu insan tiplərini ciddiliklə də qələmə alır, komik, yumoristik bir dillə də təsvir edə bilir. Onun Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr etdiyi “Gərək bu günləri görəydin”, Xalq şairi Rəsul Rzanın ölümünə yazdığı “Rəsulsuz ilk dəqiqələr”, filippinli gənc fəal siyasətçinin həyatından bəhs edən “Xose Risal”, Türk şairi Nazim Hikmətin vətənsizliyindən danışan “İstanbulda bir ceviz ağacı vardı...”, şəhid-jurnalist Çingiz Mustafayevin qəhrəmanlığından bəhs edən “Şəhidlər xiyabanı” kimi poemaları Fikrət Qoca poeziyasının inciləridir. Bu poemalarda məşhur siyasətçi, şair və qəhrəman obrazları yaradılıb.

Şairin Ulu öndərə həsr etdiyi “Gərək bu günləri görəydin” poeması böyük siyasətçinin həyatından, doğma Vətəni üçün, onun azadlığı üçün gördüyü işlərdən, fədakarlıqlardan ayrı-ayrı fraqmentlərdir:

*Heydər doğulan evdə*
*Bir çətən külfət vardı.*
*Var-dövlət olmasa da,*
*Mehriban ülfət vardı...* [4, s.232]

Filologiya elmləri doktoru Gülxani Pənah eyniadlı məqaləsində yazır: “Xalqın səsinə səs verən Fikrət Qoca – ömründə nə Leninə, nə Stalinə, nə Bağırova şeir yazmayan şair, – müstəqilliyimizi sağlam bünövrə üzərində inşa etməyə başlayan xalq, dövlət, millət fədaisini poetik bir dillə vəsf eləyir” [5, s.130].

Ömrünün son on ilini Vətənin yenidən qurulmasına, inkişafına, çiçəklənməsinə həsr edən Ümummilli lider Heydər Əliyevin bədii obrazı poemanın hər misrasında görünür:

*Əsrin müqaviləsi-*
*Bakı,Tibilisi, Ceyhan,*
*Sağaldı Azərbaycan!*
*...Hər yanda əməlin var...*
*Hər yanda heykəlin var,*
*Sabahkı günümüzdə,*
*Yenə sənin əlin var!* [4, s.238]

“Təbii ki, Allah bu millət üçün həmişə dəyərli insanlar göndərib, amma “Min-min gələn insandan // Birisi Heydər olub!”. Şair qəhrəmanının uşaqlıq illərini, Naxçıvanda doğulmasını və qeyri-adi bir insan kimi həyata atılmasını böyük coşğu ilə oxucusuna çatdırır” [6, s.145]. O, təəssüf edir ki, gərək böyük lider Azərbaycanda sonrakı dönəmlərdə olan sonsuz işləri də görəydi. Çünki bünövrəsini qoyduğu Müstəqil Azərbaycan ondan sonra çox işlərə imza atıb, onun ideyalarını həyata keçirib, dünya ölkələri sırasında yer alıb.

“Rəsulsuz ilk dəqiqələr” poeması görkəmli şairimiz Rəsul Rzanın ölümünə həsr edilib. Onun ölüm xəbərini alan şairin lirik qəhrəmanı necə ağır dəqiqələr yaşadığını təsvir edir: “Xəbər ilan kimi çaldı qulağımı…// Telefonun dəstəyi əlimdə boğuldu…// Ölüm nə ucuzdu, nə boldu…” Böyük sənətkarın kiçik xəstəxana çarpayısına necə sığdığını da göstərir:

*Gözümün qabağında*
*Bir çılpaq dünya qalmışdı…*
*Bir də üstünə ağ çəkilmiş*
*Rəsul adlı xatirə….* [4, s.242]

Həyat gerçəkliyini əks etdirən misralara bir şair obrazı da həkk olunub:

*Şair qocalmır*
*Ömrü bir yaz olur, qurtarır…*
*Şair ölmür,*
*Qara qələm kimi yazılır qurtarır…*[4, s.245]

Tam səmimi, böyük ürək ağrısı ilə yazılmış bu poema Rəsul Rzanın bir insan kimi də portretini cızır. Xasiyyətcə sərt olan şairin, əslində, köksünün altında çox kövrək bir ürək döyünüb, çırpınıb həmişə.

Akademik İsa Həbibbəyli yazır: “Fikrət Qoca şeirlərində həmişə ən müasir düşüncələri, yeni baxışları, təzə-tər, isti münasibətləri tərənnüm edir. Müasirlik və obrazlı şairanə düşüncə onun poeziyasının ruhunu təşkil edir… O, həmişə zamanı bəlli bir müdriklik düşüncəsi ilə qavrayıb və

irəli aparmağa çalışıb…” [2, s.108]. Akademikin başqa fikirləri də var: “Fikrət Qocanın poeziyasında insan obrazlı təqdimatı və lirik düşüncəsi ilə oxucuya çatdırılır. Yarım əsrdən çox həyata və insana lirika güzgüsündən baxan şair hər şeirində yeni səhifə açır… Fikrət Qocanın şeir yaradıcılığı insan mənəviyyatının çoxcildlik poetik külliyyatıdır…” [2, s.107].

Fikrət Qocanın “Xose Risal” poemasının əsas məğzi gənc ikən edam edilən vətənpərvər, xalqını, yurdunu sevən bir şairin, siyasətçinin həyatından ibarətdir. Siyasi görüşlərinə görə Filippində təqib olunan Xose Almaniyada, İspaniyada mühacirətdə olub, Filippinin azadlığı, müstəqilliyi üçün çalışıb. Lakin qara qüvvələr buna imkan verməyib. Vətənə dönən kimi onu həbs ediblər. Şair Xoseni Nəsimi ilə müqayisə edir. Gənc şairi də ölüm kamerasına salırlar. Onun gecəboyu düşüncələri, ölümdən qorxmadığı, yalnız vətən üçün bir iş görmədən öləcəyindən üzüldüyü səmimi duyğularla təsvir edilir.

“İstanbulda bir ceviz ağacı var” poeması türk şairi Nazim Hikmətin xatirəsinə yazılıb. “Sən bu gün yerin son nöqtəsindəsən,//sən bizi tərk etdin,//Səyyarələr aləminə bir səyyarə kimi getdin...” misraları ilə poemaya başlayan Fikrət Qoca həm Gülhanə parkındakı Ceviz ağacının, həm də Nazim Hikmətin bədii obrazını yaradıb. Rusiyada mühacir həyatı yaşayan Nazim Hikmət yaradıcılığı boyu şeirlərində Türkiyəni, onun təbiətini tərənnüm edib. Vətənində o qədər sevilməsə də, o Vətənini çox sevib. Poeziyasının qızıl xətti, baş mövzusu Vətən və onun həsrəti, nisgili olub. Bəlkə də buna görə Azərbaycanda o, çox sevilib, şeirləri dillər əzbəri olub. Azərbaycan ədəbiyyatında Nazim Hikmətə onlarca şeir-poema həsr edilib. Bu əsərlərdə Nazim Hikmətə böyük sevgilər əks olunub. İlk dəfə şairi Azərbaycan ədəbiyyatına Xalq şairi Rəsul Rza gətirib. Onun yaradıcılığını, həyatını Azərbaycanın dövri mətbuatında yetərincə çap etdirib, təbliğ edib, xalqa tanıdıb və sevdirib. Həyatda onunla dost olan Rəsul Rza bu ölkəni də Nazim Hikmətə sevdirib. Demək, bu sevgi qarşılıqlı idi. Fikrət Qocanın poemasında da bu sevgi aydınca görünür. Poemanı Nazim Hikmətin ölümünə elegiya da adlandırmaq olar:

*...Nazim də yol aldı öz səfərinə,*
*Getdi, köçdü tarixin səhifələrinə...* [4, s.337]

Onun ölümünə hər kəs yas tutdu. Hətta Gülhanə parkında bitmiş Ceviz ağacı da:

*Susur “Gülxana parkı”nda*
*Bir ceviz ağacı,*
*Öz vətənində qərib,*
*Meyvəsi dadlı,*
*Taleyi acı-*
*Ceviz ağacı....* [4, s.333]

Poema başdan başa Türk oğluna layladı, ağıdı.

Fikrət Qocanın digər poeması “Şəhidlər Xiyabanı” adlanır. Birinci Qarabağ müharibəsində şəhid jurnalist Çingiz Mustafayevin fəaliyyətindən, gördüyü işlərdən, vətənpərvərliyindən bəhs edir. Həmçinin, şair döyüşçü jurnalistin bədii obrazını çox yüksək səviyyədə yaradır. Müharibədə öz köhnə kamerası ilə erməni vəhşiliyini əyani surətdə çəkib dünyaya tanıdan bu cəsur oğlan elə erməni vəhşiliyinin də qurbanı olur. Onun Xocalı qətliamı videosu bu gün də dünyanı dolaşır. İkinci Qarabağ müharibəsinin təməl daşlarından biridir. Şair onu belə təsvir edir:

*İnsan meyidi səpilib*
*Yol yanında, dağ döşündə…*
*Qoca, qarı, gəlin, uşaq…*
*Keçib erməni dişinə…*
*Dağda bulaq ağlayırdı,*
*Sinə dağlaya-dağlaya…*

*Bu dərdi lentə çəkirdi,*
*Çingiz ağlaya-ağlaya…* [4, s.313]

“Cənnətdən qovulanlar” poeması Adəm ilə Həvvanın cənnətdə oğurluq etməsinin təsviri ilə başlasa da bu günümüzlə səsləşən səhnələr, təsvirlər daha çoxdur. Şair göstərir ki, “Bir millət sözü var, bir də millət sözünün içində illət sözü var...//Yaxşıları çox olanda millət olur,//Millət olanda dövlət olur...//Millət aparır dövləti qabağa...” [4, s.206-207]

Filologiya elmləri doktoru Vaqif Yusifli yazır: “Fikrət Qoca həyatın təzadlarını, insanların içindəki mənəvi burulğanları şeirində, poemalarında əks etdirib və biz bu əsərlərdə XX əsr Azərbaycan gerçəkliyinin mənzərələrini seyr edirik” [7, s.112].

Həmişə Azadlığı, Bərabərliyi, Bütövlüyü tərənnüm edən Fikrət Qoca “Cənnətdən qovulanlar” poemasında Birinci Qarabağ müharibəsini, qaçqın-köçkün həyatını, Araz həsrətini də önə çəkir:

*Erməni tapdağında qalan*
*Müqəddəs yerlərə kim ağlayacaq?*
*...Ocağı söndürülən obalara,*
*Məzarı tapdalanan babalara*
*kim ağlayacaq?* [4, s.208]

İki əsrdir bir milləti iki yerə bölən Araz adlı bir çay axır. Bu çayın arxasında bir fars şovinizmi yaşayır.

*Bizi parçalayıblar,*
*Aramıza Araz adlı su calayıblar.*
*Orda Azadlıq deyən oğullarım asılır,*
*Orda danışan dillərə dağ basılır...* [4, s.212]

Vaqif Yusifli daha sonra yazır: “Fikrət Qoca 90-cı illərdə də, yeni eramızın ilk on illiyində də dünyada, məmləkətimizdə baş verən ictimai-siyasi olaylara münasibətini gizlətmədi, xüsusilə azadlıq və müstəqillik ideyalarını ifadə edən şeirlər, poemalar yazdı... Bizim mənəvi dünyamızın, milli duyğularımızın, yaşadığımız gerçəkliyin ən incə mətləblərinə güzgü tutdu...” [7, s.112] Demək, Fikrət Qoca Müstəqillik illəri Azərbaycan ədəbiyyatının yaranmasında, formalaşmasında xüsusi rol oynayan şairlərimizdəndir. Onun “Azadlıq şərqisi”, “Azad günlər balladası”, “Oddan keçənlər”, “Yaralı çiçəklər”, “Bayraq tutan oğullar” kimi poemaları bir daha bu fikri təsdiq edir.

Filologiya elmləri doktoru Rüstəm Kamal Fikrət Qocanın poeziyası haqqında yazır: “Bu gün milli-mənəvi-əxlaqi dəyərləri şeirə daşımağın özü şairdən ayrıca məsuliyyət tələb edir. Fikrət Qoca bu gün bu məsuliyyəti şərəflə boynuna götürüb… bir çox şeirlərin mayasını, ideya cövhərini aforistik düşüncə formalaşdırır…bu gün Fikrət Qoca sözü həmin mənəvi dəyərin ifadə məkanıdır” [3, s.193]. Bütün bunlar reallıqdır, həqiqətdir.

## Nəticə / *Conclusion*

Beləliklə, “60-cılar” ədəbi nəsli içərisində özünəməxsus yer tutan, öz mövzu dairəsi olan Fikrət Qoca poeziyasında milli dəyərlərlə bəşəri dəyərləri vəhdət halında tərənnüm edib. Şair Rəsul Rza, Nazim Hikmət, Xose Risat kimi şairlərin bədii obrazını yaradarkən onlar arasında heç bir fərq qoymur, çox səmimi, real hadisələri götürüb özününküləşdirir və ən yaxını, doğması kimi ağrı-acılarını təsvir edir. Vyetnam, Kuba, ümumiyyətlə, azadlıq uğrunda döyüşən xalqlar Fikrət Qoca poeziyasının baş qəhrəmanlarıdır. Azadlıq, Bərabərlik, Bütövlük sevən millətlər az qala şairin bütün şeirlərində vəsf olunur. Poetik yaradıcılığı ilə ədəbi məktəb yaradan Fikrət Qoca poeziyası, bizcə, Azərbaycan ədəbiyyatında əbədiyaşarlıq qazanıb.

**Ədəbiyyat / *References***

1. Elçin. Qoca Fikrət. Əbədiyyətə qovuşan od oğlu. – Bakı: SkyG nəş., 2022, s.97-106.
2. Həbibbəyli İsa. Yaş o yaş deyil ki. Əbədiyyətə qovuşan od oğlu. – Bakı: SkyG nəş., 2022, s.107-109.
3. Kamal Rüstəm. Fikrət Qoca müdrikliyinin formulu. – Bakı: SkyG nəş., 2022, s.191-195.
4. Qoca Fikrət. Seçilmiş əsərləri, VI cild. – Bakı: UniPrint nəş., 2015, 368 s.
5. Pənah Gülxani. Gərək bu günləri görəydin. Əbədiyyətə qovuşan od oğlu. – Bakı: SkyG nəşı., s.128-140.
6. Səma Gülnar. Fikrət Qocanın çağdaş poemaları. Əbədiyyətə qovuşan od oğlu. – Bakı: SkyG nəş., s.141-147.
7. Yusifli Vaqif. Bu Fİkrət Qocadı. Əbədiyyətə qovuşan od oğlu. – Bakı: SkyG nəş., 2022, s.110-118.

## Поэтика поэзии Фикрета Годжи

**Бахар Мамедова Бардали**
Доктор филологических наук, доцент
Институт Литературы имени Низами Гянджеви НАНА
E-mail: baharmemmedova288@gmail.com

**Резюме.** В статье рассматривается поэзия Фикрета Годжи. Новаторские стихи поэта очень коротки и лаконичны, но содержательны и насыщены глубокими идеями. Значительное количество его стихотворений посвящены природе и любви. Поэтическое описание родной природы занимает центральное место в его творчестве. Поскольку он чаще всего пишет о любви, Фикрет Годжа известен как лирический поэт, и на его стихи было написано множество музыкальных произведений.
В статье также анализированы поэмы поэта. Главными героями этих поэм являются известные всем поэты, государственные деятели, политики, шехиды и обычные люди. Особое место занимает поэма, посвящённая государственному деятелю Азербайджана Гейдару Алиеву, его политической деятельности и жизни; она выделяется своей искренностью и реалистичностью. Также в творчестве Фикрета Годжи занимают важное место поэмы, посвящённые народному поэту Расулу Рзе, турецкому поэту Назыму Хикмету, филиппинскому политику и молодому поэту Хосе Рисалу, а также журналисту-шехиду, национальному герою Азербайджана Чингизу Мустафаеву.
Фикрет Годжа сыграл значительную роль в формировании и развитии послевоенной литературы. Его произведения, посвящённые Первой и Второй Карабахским войнам, подтверждают этот факт.
**Ключевые слова:** Азербайджан, литература, Расул Рза, Фикрет Годжа, поэма, Назым Хикмет